QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 163 (5394) 12 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan bundan sonra da İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verəcək"

*Prezident İlham Əliyev Astanada İƏT-in elm və texnologiya üzrə birinci Sammitində iştirak edib*




Səh 2

Azərbaycan Prezidenti İlham Əliyev aidiyyəti orqanlara Mehman Əliyevin müraciətinə baxılmasını tapşırıb



10

Birinci vitse-prezident Mehriban Əliyeva 105 nömrəli körpələr evi-uşaq bağçasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub



8

Əli Həsənov: "Prezident İlham Əliyev Aleksandr Lapşini əfv etdi"



11

Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq genişlənir



11

"İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni tədris binası istifadəyə verilib



12

Elmar Məmmədyarov Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri ilə görüşüb



5

14

İşğalçı ölkə təlatümlər burulğanında



11

Naxçıvanda dünyanın ən müasir mebelləri ilə rəqabətə girə biləcək keyfiyyətli məhsullar istehsal olunur



16

Tərlan Əhmədov "Neftçi"nin baş məşqcisi təyin olundu



# "Azərbaycan bundan sonra da İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verəcək"

## *Prezident İlham Əliyev Astanada İƏT-in elm və texnologiya üzrə birinci Sammitində iştirak edib*




***Sentyabrın 10-da Qazaxıstanın paytaxtı Astanada İslam Əməkdaşlıq Təşkilatının (İƏT) elm və texnologiya üzrə birinci Sammiti işə başlayıb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.***

Sonra birgə foto çəkdirildi. İslam Əməkdaşlıq Təşkilatının elm və texnologiya üzrə birinci Sammiti Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin ötən ilin aprelində İƏT-in İstanbulda keçirilən XIII Zirvə toplantısında irəli sürdüyü təşəbbüsə əsasən təşkil olunub. İƏT-in elm və texnologiya üzrə birinci Sammitində təşkilata üzv olan 57 ölkənin dövlət və hökumət başçıları, elm və texnologiya məsələləri üzrə məsul nazirlər, müşahidəçi ölkələrdən, eləcə də beynəlxalq təşkilatlardan 80-dək nümayəndə heyəti iştirak edir. Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.




Sammitin açılış sessiyasında çıxış edən Qazaxıstan Prezidenti Nursultan Nazarbayev son zamanlar İslam ümmətinin çətin sınaqlarla üzləşdiyini, müsəlman ölkələrində ekstremist və terrorçu təşkilatların yayıldığını təəssüf hissi ilə qeyd edərək bildirdi ki, bundan daha çox İslam ölkələri əziyyət çəkir. Eyni zamanda, bu, Qərb ölkələrində islamofobiya meyillərinin, eləcə də müsəlmanlara qarşı zorakılığın artmasına səbəb olur. Myanmada müsəlmanlara qarşı yaşanan kütləvi zorakılıq hallarının İslam ölkələrində dərin narahatlıq doğurduğunu ifadə edən Qazaxıstan Prezidenti bu problemin dialoq yolu ilə BMT-nin əsas prinsipləri əsasında həll edilməsinin vacibliyini bildirdi. Prezident Nursultan Nazarbayev İslam ölkələrində elm və texnologiyanın inkişaf etdirilməsi üçün "G-20" formatında beynəlxalq forumun yaradılmasının vacibliyini qeyd etdi. Qazaxıstan dövlətinin başçısı bu sahədə Qərb ölkələri ilə səmərəli əməkdaşlığın qurulmasının vacibliyini bildirdi və bu baxımdan belə sammitlərin əhəmiyyətini vurğuladı. Nursultan Nazarbayev Astana Sammitinin İslam dünyasında əməkdaşlığın inkişafına təkan verəcəyinə əminliyini ifadə etdi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan müasir dövrdə cəmiyyətin tərəqqisində mühüm rol oynayan elm və texnologiyanın İslam ölkələrində inkişaf etdirilməsinə həsr olunan Sammitin önəmini vurğuladı. Türkiyənin son illər elm və texnologiya sahəsində təhsil imkanlarının genişləndirilməsinə, mühüm proqram və tədbirlərin reallaşdırılmasına xüsusi diqqət yetirdiyini söyləyən Prezident Rəcəb Tayyib Ərdoğan ölkəsində İƏT-ə üzv dövlətlərdən 9500 tələbənin təhsil aldığını qeyd etdi. İslam aləmində son dövrdə yaşanan proseslərin müsəlman ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsi zərurətini ortaya çıxardığını deyən Prezident Rəcəb Tayyib Ərdoğan elm və texnologiyanın inkişaf etdirilməsi məqsədilə irəli sürülən təşəbbüslərə siyasi dəstəyin verilməsinin vacibliyini bildirdi.

Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn müsəlman ölkələrində də elm və texnologiyanın inkişafına xidmət edəcək belə bir Sammitin təşkilini yüksək qiymətləndirdi. Bildirdi ki, bu Sammitdə qəbul olunacaq qərarlar müsəlman ölkələrində elm və texnologiyanın inkişafı sahəsində görülən işlərə böyük təkan verəcək. Bu baxımdan elm və texnologiya sahəsində nailiyyətlərin dəstəklənməsi çox böyük əhəmiyyət kəsb edir. Mavritaniya İslam Respublikasının Prezidenti Məhəmməd Uld Əbdüləziz elm və texnologiyanın inkişaf etdirilməsinin dayanıqlı tərəqqiyə nail olunması baxımından mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev İslam dünyasının, o cümlədən Mərkəzi Asiya bölgəsinin orta əsrlərdə dünyanın elm mərkəzi olduğunu bildirdi. Özbəkistanda 300-dən çox elm və texnologiya mərkəzinin fəaliyyət göstərdiyini, ölkəsində bu sahənin inkişafına xüsusi diqqət yetirildiyini qeyd etdi.

Afrika ölkələri qrupu adından çıxış edən Qvineya Respublikasının Prezidenti Alfa Konde elm və texnologiyanın cəmiyyətin həyatının müasir formada təşkilinə şərait yaratdığını, istehsal imkanlarını artırdığını bildirdi. Qeyd etdi ki, son illər Afrika ölkələrində elm və texnologiya sahəsinin inkişafına böyük məbləğdə sərmayələr yatırılır.

İran İslam Respublikasının Prezidenti Həsən Ruhani elm və texnologiya sahəsində əməkdaşlığın İslam ölkələrinin inkişafında mühüm rol oynadığını bildirdi. Müasir dövrdə İslam dünyasının müxtəlif problem və çağırışlarla üzləşdiyini qeyd edən Prezident Həsən Ruhani bütün bunların müsəlman aləmində böyük təəssüf hissi doğurduğunu vurğuladı. Dövlət başçısı bu problemlərin həll edilməsi, eləcə də müsəlman ölkələrində inkişafın təmin olunması üçün bütün istiqamətlərdə, o cümlədən elm və texnologiya sahəsində əməkdaşlığın genişləndirilməsinin önəmini qeyd etdi.

İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif Əl-Osaymin Astana Sammitinin İslam dünyası üçün olduqca mühüm vaxtda keçirildiyini bildirdi. Müsəlman ölkələrinin inkişafı istiqamətində vacib addımların atılmasının zəruriliyini qeyd edən Yusif Əl-Osaymin dedi ki, elm və texnologiyanın tərəqqisi sahəsində atılan addımlar ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsinə töhfə verəcək.

Ardı Səh. 3

# “Azərbaycan bundan sonra da İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verəcək”

## *Prezident İlham Əliyev Astanada İƏT-in elm və texnologiya üzrə birinci Sammitində iştirak edib*




**Əvvəli-Səh-2**

Açılış sessiyasından sonra Sammit işini “XXI əsrdə elmin cəmiyyətə artan təsiri” mövzusunda sessiya ilə davam etdirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sessiyada çıxış edib.

### Prezident İlham Əliyevin çıxışı:

Bismillahir-rəhmanir-rəhim. Əziz dostlar.

Qazaxıstan torpağında yenidən olmağımdan çox məmnunam. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) elm və texnologiya üzrə birinci Sammitinin keçirilməsini yüksək qiymətləndirirəm. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Son bir neçə ildə Azərbaycanda İƏT-ə üzv ölkələrin xarici işlər, mədəniyyət, turizm, təhsil, əmək və digər nazirlərinin 10-a yaxın görüşü keçirilmişdir. Biz təşkilata üzv ölkələrlə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirik. Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda müsəlman ölkələrini daim dəstəkləyir. İƏT də öz növbəsində Azərbaycana böyük dəstək göstərir və ölkəmizin apardığı siyasətə yüksək qiymət verir. İƏT daim Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı çərçivəsində həllini dəstəkləyən ədalətli mövqe nümayiş etdirib və Azərbaycanın ədalətli mövqeyini əks etdirən bir çox qətnamələr qəbul edib. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilmiş Zirvə görüşündə Ermənistanın Azərbaycana qarsı təcavüzü ilə əlaqədar Təmas Qrupu yaradılmışdır. Biz bu qərarı çox yüksək qiymətləndiririk və bu ədalətli mövqeyə görə İƏT-ə və onun üzvlərinə təşəkkürümüzü bildiririk.

BMT Təhlükəsizlik Şurası münaqişə ilə bağlı dörd qətnamə qəbul edib. Bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılması tələb olunur. Ermənistan bu qətnamələri icra etmir və buna görə onlara qarşı sanksiyalar tətbiq olunmur. Bu, ikili standartlardır. Ermənistan 25 ildən çoxdur ki, Azərbaycanın əzəli, tarixi torpağı olan Dağlıq Qarabağı və digər yeddi rayonumuzu işğal edib. Bu təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal altına düşüb, bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətində yaşayır. Ermənilər xalqımıza qarşı etnik təmizləmə siyasəti aparmışlar, Ermənistan hərbi cinayətlər törətmişdir.

1992-ci ildə Ermənistan Xocalı soyqırımını törətmişdir. Bu hərbi cinayət nəticəsində 613 dinc azərbaycanlı erməni faşistləri tərəfindən vəhşicəsinə qətlə yetirilib. Onlardan 106-sı qadın və 63-ü uşaqdır. Minlərlə insan itkin düşüb və yaralanıb. Ondan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyıb. Ermənı vəhşiliyi bu gün də davam edir. Bu ilin iyul ayında iki yaşlı azərbaycanlı körpə nənəsi ilə birlikdə ermənilər tərəfindən atılan mərmi nəticəsində həyatını itirmişdir. Bu, vəhşilikdir. Bu, erməni faşizminin növbəti qanlı cinayətidir. İşğal edilmiş torpaqlarımızda Ermənistan rəhbərliyinin göstərişi ilə bütün məscidlərimiz dağıdılıb. Şuşa, Ağdam və digər şəhərlərimizin dağıdılmış məscidlərinin fotoşəkilləri erməni vandalizminin sənədli sübutudur. Ermənistanda islamofobiya pik həddə çatıb. Ermənistan çox çalışır ki, müxtəlif müsəlman ölkələri ilə əlaqələrini genişləndirsin. Onların riyakar və yalan sözlərinə inanmaq lazım deyil. Azərbaycanda müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz.

Keçən ilin aprel ayında qəhrəman Azərbaycan Ordusu torpağımızın bir hissəsini erməni işğalçılarından azad edib. Biz orada yeni qəsəbə salmışıq. 150 evdən ibarət Cocuq Mərcanlı qəsəbəsində məktəb, tibb mərkəzi və məscid tikilib. Ermənilər tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini biz işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində tikdik. Bu, bir daha Azərbaycan xalqının yenilməz ruhunu, öz dini dəyərlərinə bağlılığını göstərir. Ermənilər məscidlərimizi dağıdıblar. Ancaq bu məscidlər bizim qəlbimizdə ucaldılıb, onları heç bir qüvvə dağıda bilməz.

Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfə verir. Biz dünyanın müxtəlif bölgələrində baş qaldıran islamofobiyaya qarşı fəal mübarizə aparırıq. Biz müsəlmanlara qarşı törədilən cinayətləri, xüsusilə də son vaxtlar Myanmada Rohingiya müsəlmanlarına qarşı həyata keçirilən qətliam və kütləvi zorakılıq hallarını qətiyyətlə pisləyirik. Biz beynəlxalq təşkilatları, dünya ictimaiyyətini, siyasi və dini liderləri Myanmada baş verən hadisələrin qarşısının alınması üçün zəruri addımlar atmağa çağırırıq. Yeri gəlmişkən, bildirmək istəyirəm ki, sentyabrın 8-də Azərbaycan Rohingiya qaçqınlarına humanitar yardım - 100 ton ərzaq məhsulu göndərmişdir.

2017-ci il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunub. Eyni zamanda, bu il Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Bu möhtəşəm dostluq və qardaşlıq bayramında 50-dən çox müsəlman ölkəsi iştirak etmişdir. Əminəm ki, üç minə yaxın idmançı və minlərlə qonaq Bakıdan ən xoş təəssüratlarla ayrılmışdır.

Azərbaycan sürətlə inkişaf edən ölkədir. Son 14 il ərzində ölkəmizin ümumi daxili məhsulu üç dəfədən çox artmışdır. Bir milyon 600 min iş yeri yaradılmışdır. Yoxsulluq beş faiz səviyyəsinə düşmüşdür. Savadlılıq isə 100 faizə yaxındır. Azərbaycanda elm və müasir texnologiyalar uğurla inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir. Çıxışımın sonunda qeyd etmək istəyirəm ki, Azərbaycan bundan sonra da İƏT-in fəal üzvü kimi İslam həmrəyliyinin möhkəmlənməsinə öz töhfəsini verəcək. Sağ olun.

X X X

Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani çıxışında müsəlman ölkələrində davamlı iqtisadi inkişafa nail olunmasında sabitliyin təmin edilməsinin önəmini xüsusi vurğuladı.

Pakistan İslam Respublikasının Prezidenti Məmnun Hüseyn müsəlman ölkələrinin inkişafında qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin, mövcud potensialdan səmərəli istifadənin vacibliyini bildirdi. Prezident Məmnun Hüseyn İslam dünyasında elmin və texnologiyanın inkişafında mövcud elmi potensialdan istifadə olunmasının önəmini qeyd etdi, bu prosesdə alimlərin rolunu yüksək qiymətləndirdi.

Banqladeş Xalq Respublikasının Prezidenti Abdul Hamid İslam ölkələrində elm və texnologiyanın inkişafının enerji resurslarından və kosmik peyklərdən birgə istifadə, ətraf mühitin mühafizəsi və digər istiqamətlərdə ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə mühüm töhfə verəcəyini bildirdi.

İndoneziya Respublikasının vitse-prezidenti Yusuf Kalla XXI əsrdə elm, texnologiya və innovasiyaların ölkələrin inkişafında mühüm rol oynadığını qeyd edərək, belə bir Sammitin vaxtında təşkil olunduğunu vurğuladı. O, İndoneziyada nanotexnologiya, mikroorqanizmlərin öyrənilməsi, kosmik sənaye və digər sahələrdə mühüm proqramların həyata keçirildiyini bildirdi. Komor Adaları İttifaqının vitse-prezidenti Abdallah Said Sarouma İslam dünyasının inkişafında elm və texnologiyanın önəmini qeyd etdi və bu baxımdan Sammitin əhəmiyyətini yüksək qiymətləndirdi.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç İƏT-in elm və texnologiya üzrə birinci Sammitinin keçirilməsinin tarixi hadisə olduğunu dedi. Müsəlman ölkələrinin gənclərin sayına və sürətli artımına görə dünyada ilk sıralarda olduğunu vurğulayan Bakir İzetbeqoviç bu baxımdan gənclərin təhsil imkanlarının genişləndirilməsinin, fəallıqlarının artırılmasının önəmini diqqətə çatdırdı. Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro çıxışında bildirdi ki, Sammitdə müzakirə olunan mövzular cəmiyyətin inkişafı baxımından mühüm rol oynayır. Bu, həm də regional və qlobal əməkdaşlığın inkişafı baxımından geniş perspektivlər açır.

Səudiyyə Ərəbistanı Krallığının energetika, sənaye və təbii sərvətlər naziri Xalid əl-Falih qeyd etdi ki, elmin və texnologiyanın inkişafı ölkələrimizin rifahı ilə yanaşı, qlobal iqtisadiyyatın da tərəqqisinə böyük töhfə verə bilər. O, bu baxımdan mühüm kəşflərin və nailiyyətlərin dəstəklənməsində beynəlxalq əməkdaşlığın vacib rol oynadığını qeyd etdi.

X X X

Tədbirdə İslam dünyasının elmi və texnoloji inkişafı üçün siyasi dəstək prosesinin başlanmasını nəzərdə tutan Astana Bəyannaməsi qəbul edilib. Sammit çərçivəsində “Davamlı inkişafda elm və texnologiyaların rolu”, “Müasir iqtisadiyyatda rəqabət və innovasiyalar”, “Elm və texnologiyalar sahəsində əməkdaşlığın inkişafı” mövzularında sessiyalar keçiriləcək, zəngin təbii resurslara malik olan müsəlman ölkələrində yoxsulluq, aclıq, işsizlik problemlərinə, eləcə də elm, təhsil, texnologiya sahələrində inkişaf məsələlərinə dair müzakirələr aparılıb. Bununla yanaşı, müsəlman ölkələrində gənclərin üzləşdikləri problemlər, onların elm və təhsil sahələrinə daha geniş cəlb edilməsi, habelə zorakı ekstremizm, terrorizm ilə mübarizə məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 sentyabr 2017-ci il

# “Biz dost ölkə olaraq İranın uğurlarına sevinirik”

*Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin Astanada görüşü olub*




Sentyabrın 10-da Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin görüşü olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Prezident İlham Əliyev Həsən Ruhanini yenidən İran Prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi. Bildirdi ki, bu, İran xalqının Prezident Həsən Ruhaninin həyata keçirdiyi siyasəti dəstəklədiyini göstərir. Prezident İlham Əliyev qeyd etdi ki, biz dost ölkə olaraq İranın uğurlarına sevinirik.

Dövlətimizin başçısı İran Prezidenti ilə xeyli sayda keçirdiyi görüşləri məmnunluqla xatırladaraq həmin görüşlər zamanı səmərəli danışıqların aparıldığını vurğuladı. Ölkələrimiz arasında imzalanan sənədlərin uğurla icra olunduğunu qeyd edən Prezident İlham Əliyev Azərbaycan-İran dostluq əlaqələrinin bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi. Prezident Həsən Ruhani ikitərəfli münasibətlərin sürətlə inkişaf etdiyini vurğulayaraq dedi ki, biz ikitərəfli əlaqələrimizin inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədləri müvəffəqiyyətlə yerinə yetirmək üçün səylərimizi birləşdirməliyik. Qeyd etdi ki, İranın yeni seçilən hökuməti də Azərbaycan ilə dostluq münasibətlərinin inkişaf etdirilməsi işinə sadiqdir.

Ölkələrimiz arasında uğurlu layihələrin həyata keçirildiyini xatırladan İran Prezidenti bu baxımdan dəmir yolu layihəsini xüsusi vurğuladı. Bildirdi ki, bu dəmir yolu layihəsi beynəlxalq əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Şimal-Cənub nəqliyyat dəhlizinin önəminə toxunan Prezident Həsən Ruhani Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlığının regional və beynəlxalq əməkdaşlıq baxımından əhəmiyyətini qeyd etdi. İran Prezidenti Azərbaycan, İran və Rusiya dövlət başçılarının növbəti üçtərəfli zirvə görüşünün Tehranda keçiriləcəyini bildirərək, Prezident İlham Əliyevi həmin tədbirə dəvət etdi.




Ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu vurğulayan İran Prezidenti ümidvar olduğunu bildirdi ki, Xəzərin statusu ilə bağlı səylərimizi əlaqələndirərək yaxın zamanlarda bu sahədə razılıq əldə etmək mümkündür.

Prezident Həsən Ruhani ölkəsi tərəfindən həyata keçirilən işlərdən danışaraq dedi ki, İran digər ölkələrlə birlikdə nəhəng layihələr həyata keçirir. İran həmin layihələrdə Azərbaycanın iştirakını və investisiya qoymasını alqışlayar. İran Prezidenti ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin, elm sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Terrorizmin regionda sülhə və sabitliyə ciddi təhdid yaratdığını deyən Prezident Həsən Ruhani beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan ilə birgə səylərin artırılmasında maraqlı olduqlarını qeyd etdi.

Prezident İlham Əliyev İran Prezidentinin Tehranda keçiriləcək Azərbaycan, İran və Rusiya dövlət başçılarının növbəti üçtərəfli zirvə görüşünə dəvətini qəbul edərək, buna görə minnətdarlığını bildirdi. İran Prezidentinin fikirləri ilə razılığını ifadə edən dövlətimizin başçısı Bakıda keçirilən birinci üçtərəfli görüşün əhəmiyyətinə toxunaraq Azərbaycanın bu əməkdaşlığa fəal surətdə öz töhfəsini verdiyini dedi.

Dövlətimizin başçısı Şimal-Cənub layihəsinə toxunaraq qeyd etdi ki, Azərbaycan bu layihənin fəal iştirakçısıdır. Prezident İlham Əliyev ölkələrimiz arasında dəmir yolu layihəsinin əhəmiyyətini qeyd edərək, dəmir yolunun inşası işlərinin yaxın zamanlarda başa çatdırılacağına ümidvar olduğunu bildirdi.

Azərbaycan-İran iqtisadi əlaqələrindən danışan dövlətimizin başçısı bu sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini dedi. Prezident İlham Əliyev ölkəmizdə Ordubad su elektrik stansiyasının, həmçinin “İran Xodro” avtomobil zavodunun, əczaçılıq zavodunun inşasını iqtisadi əməkdaşlığımızın genişlənməsi baxımından yüksək qiymətləndirdi. Prezident İlham Əliyev bildirdi ki, İranın Azərbaycana investisiya qoyuluşu sahəsində də əməkdaşlıq üçün yaxşı imkanlar var. Azərbaycan Prezidenti qarşılıqlı ticarət dövriyyəsinin artırılmasının vacibliyini bildirdi, investisiya qoyuluşu sahəsində də səylərin gücləndirilməsinin zəruriliyini qeyd etdi.

Prezident İlham Əliyev terrorizmin region üçün yaratdığı təhlükəyə toxunaraq dedi ki, Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizəni vacib sayır və bu sahədə birgə əməkdaşlıq etməyə böyük önəm verir. Prezident İlham Əliyev İran Prezidentini onun üçün münasib olan vaxtda ölkəmizə səfərə dəvət etdi. İran Prezidenti dəvətə görə minnətdarlığını bildirdi.

# Prezident İlham Əliyev Astanada Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç ilə görüşüb




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Astanada Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Bakir İzetbeqoviç ilə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı. Söhbət zamanı ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların indiki vəziyyəti və perspektivləri müzakirə olundu.

X X X

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına işgüzar səfəri sentyabrın 10-da başa çatıb.

# Azərbaycanda təhsilin inkişafı üçün mühüm işlər görülür

## *Prezident İlham Əliyev Səbail rayonundakı 239 nömrəli məktəbdə əsaslı yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub*







***Sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Səbail rayonunun Badamdar qəsəbəsindəki 239 nömrəli tam orta məktəbin binasında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub.***





AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov dövlətimizin başçısına məktəbin binasında görülən işlər barədə məlumat verdi.

Məktəbin əsas korpusu 1960-cı ildə, ikinci korpusu isə 2007-ci ildə inşa olunub. Hər iki korpusda yenidənqurma işləri yüksək keyfiyyətlə yerinə yetirilib. Məktəbdə 53 sinif, 2 informatika otağı, fizika, kimya, biologiya laboratoriyaları, idman və akt zalları, hərbi otaq və kitabxana var. Təhsil ocağında, həmçinin "Sağlam təhsil" və tibb otaqları da yaradılıb. Sinif otaqlarının hamısı zəruri tədris vəsaitləri ilə təchiz edilib. Hazırda məktəbdə 1180 şagird təhsil alır. Təhsil müəssisəsində şagirdlərin idmanla məşğul olmaları üçün hərtərəfli şərait yaradılıb. Təmir işləri çərçivəsində idman zalı və idman meydançası da yüksək səviyyədə yenidən qurulub.

Azərbaycanda təhsil sahəsində aparılan islahatların əsasını "Təhsil millətin gələcəyidir", - deyən ümummilli lider Heydər Əliyev qoyub. Ulu Öndərin bu sahədə başladığı siyasəti dövlətimizin başçısı İlham Əliyev uğurla davam etdirərək, təhsil sferasını yeni inkişaf mərhələsinə çıxarıb.

Son illər ölkəmizdə təhsillə bağlı mühüm tədbirlər həyata keçirilib, Azərbaycan Prezidenti tərəfindən yeni dövlət proqramlarının qəbul edilməsi haqqında sərəncamlar imzalanıb. Yeni məktəb binalarının inşası və mövcudlarının müasir səviyyədə yenidən qurulması Azərbaycanda təhsil sahəsinə göstərilən dövlət qayğısının bir hissəsidir. Belə layihələrin icrası şagirdlərə müasir sinif otaqlarında təhsil almaq, müəllimlərə isə yüksək iş şəraitində tədrislə məşğul olmaq imkanı yaradır.

Yenidənqurma zamanı 239 nömrəli məktəbin həyətində də geniş abadlıq işləri görülüb, yaşıllıqlar salınıb. Məktəbin binasında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 sentyabr 2017-ci il

# Səbail rayonunun 20-ci Yaşayış sahəsindəki 162 nömrəli məktəbin binası yenidənqurmadan sonra istifadəyə verilib

***Sentyabrın 11-də Səbail rayonunun 20-ci Yaşayış sahəsindəki 162 nömrəli tam orta məktəbin binası yenidənqurmadan sonra istifadəyə verilib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məktəbin binasında yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısına təmir və yenidənqurma işləri ilə bağlı məlumat verildi.

Bu məktəbin böyük tarixi keçmişi var. Belə ki, təhsil ocağı 1917-ci ildə təsis olunub və elə həmin ildən bu binada fəaliyyətə başlayıb. Məktəbin binasında indiyədək əsaslı təmir işləri aparılmamışdı. Təhsil ocağının 41 sinif otağından və müxtəlif fənn kabinetlərindən ibarət üçmərtəbəli binasında yenidənqurma işləri qısa zamanda və müasir standartlara uyğun olaraq yüksək keyfiyyətlə həyata keçirilib.

Dövlətimizin başçısı sinif otaqlarında yaradılan şəraitlə tanış oldu.

Prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına diqqət və qayğısının nəticəsidir ki, son illər ərzində Azərbaycanın hər yerində olduğu kimi, paytaxtın Səbail rayonunda da təhsil müəssisələri, onların əsaslı təmiri və təchizatı sahəsində böyük işlər görülüb. Bu ilin yay aylarında da rayondakı 2 orta məktəbdə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Onlardan biri 162 nömrəli tam orta məktəbin binasıdır. Məktəbdə tədrisin müasir səviyyədə qurulması üçün hər cür şərait yaradılıb. Tədris müəssisəsi lazımi avadanlıqla tam təchiz olunub.

Dövlətimizin başçısı məktəbdə yaradılan "Eko sinif"lə də tanış oldu. Belə siniflərin yaradılmasında məqsəd şagirdləri ekoloji cəhətdən maarifləndirmək, onların ətraf mühitin qorunması işində məsuliyyət hisslərini artırmaqdan ibarətdir. Təhsil ocağının gənclərin çağırışaqədər hazırlığı kabineti isə yüksək səviyyədə qurulub, lazımi ləvazimat və stendlərlə təmin olunub, burada mini kazarma yaradılıb.












Qeyd edək ki, 162 nömrəli məktəbdə tədris ikinövbəli rejimdə aparılır. Burada Azərbaycan və rus bölmələrində 1400-ə yaxın şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 105 müəllim məşğul olur. Fəaliyyət göstərdiyi illərdə bir sıra uğurlara imza atan bu təhsil ocağının həyətində də geniş abadlıq və quruculuq işləri görülüb.

# Prezident İlham Əliyev Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin katibinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 11-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Siyasi Büronun üzvü, Vyetnam KP MK-nın xalq kütlələri ilə iş şöbəsinin müdiri xanım Çionq Txi Mayın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz, eləcə də Yeni Azərbaycan Partiyası ilə Vyetnamın Kommunist Partiyası arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev bir neçə il bundan əvvəl Vyetnama dövlət səfərini və səfər zamanı Azərbaycanın ali məktəblərinin vyetnamlı məzunları ilə görüşünü məmnunluqla xatırladı. Dövlətimizin başçısı qeyd etdi ki, bu, çox səmimi bir görüş idi və sonra onlar Bakıya dəvət olundular, burada yaşadıqları və təhsil aldıqları yerləri ziyarət etdilər. Prezident İlham Əliyev, eyni zamanda, Vyetnamın bundan əvvəlki Prezidentinin Azərbaycana səfərinin əhəmiyyətinə də toxundu və bütün digər səviyyələrdə əlaqələrin möhkəmləndirilməsinin önəmini qeyd etdi. Dövlətimizin başçısı beynəlxalq təşkilatlarda əməkdaşlığın, iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinin, ticarət dövriyyəsinin artırılmasının, təhsil sahəsində ənənəvi əməkdaşlığın, ölkələrimiz arasında mövcud olan tarixi-mədəni əlaqələrin genişləndirilməsinin önəmini vurğuladı. Prezident İlham Əliyev əmin olduğunu bildirdi ki, xanım Çionq Txi Mayın Azərbaycana səfəri ölkələrimiz və xalqlarımız arasında dostluq əlaqələrinin daha da möhkəmləndirilməsi işinə xidmət edəcək.

Xanım Çionq Txi May ilk növbədə dövlətimizin başçısına və Azərbaycan xalqına son illər əldə edilmiş böyük nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. O qeyd etdi ki, ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq münasibətləri mövcuddur. Çionq Txi May bu münasibətlərin əsasının Vyetnam xalqının lideri Xo Şi Min və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu məmnunluqla vurğuladı. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasının 25 illiyinin tamam olacağını qeyd edən vyetnamlı qonaq Azərbaycanın müxtəlif dövrlərdə ölkəsinə verdiyi dəstəyə görə minnətdarlığını ifadə etdi. Xanım Çionq Txi May səfər proqramı çərçivəsində Heydər Əliyev Mərkəzində olduğunu vurğulayaraq bildirdi ki, biz Azərbaycanın müstəqil dövlət kimi bu səviyyəyə çatmasında Ulu Öndərin rolunun bir daha şahidi olduq. Qonaq qeyd etdi ki, Azərbaycan Vyetnamı Cənub-Şərqi Asiyada özünün etibarlı tərəfdaşı hesab edə bilər.

Görüşdə ölkələrimiz arasında sərmayə qoyuluşu, enerji, nəqliyyat, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev Nghiem Vu Khainin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Aleksandr Lapşinin əfv edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev İlham İsa oğlu Mədətovun Azərbaycan Turizm və Menecment Universitetinin rektoru təyin edilməsi barədə Sərəncam imzalayıb.

# Azərbaycan dövləti təhsilin inkişafına və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqətlə yanaşır

## *Prezident İlham Əliyev əsaslı təmir edilən 268 saylı xüsusi məktəbdə yaradılan şəraitlə tanış olub*





Sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məktəbin binasında görülən işlərlə bağlı dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, bu məktəbdə xüsusi qayğıya ehtiyacı olan uşaqlar təhsil alırlar. Məktəb 1927-ci ildən fəaliyyət göstərir. Burada da əsaslı təmir işləri Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı Sərəncamla təsdiq edilmiş Dövlət Proqramının tədbirlər planının icrası ilə əlaqədar aparılıb. Məktəbin ikimərtəbəli binasında 23 sinif otağı var. Burada uşaqlara gündə 2 dəfə yemək verilir. Təhsil müəssisəsinin bütün otaqları zəruri əyani tədris vəsaitləri ilə təchiz olunub. Bundan başqa, təhsil ocağının informatika otağı və gimnastika zalı da şagirdlərin ixtiyarına veriləcək. Məktəbin tədris proqramına, ümumilikdə, 900 şagird cəlb edilib.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı bu cür müəssisələrin müasir səviyyədə yenidən qurulması onu göstərir ki, Azərbaycan dövləti təhsilin inkişafına və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqətlə yanaşır. Bu layihənin həyata keçirilməsi, eyni zamanda, ölkədə bütün sosial təbəqələrə aid vətəndaşların təhsil almaları üçün yaradılan şəraiti aydın nümayiş etdirir.

səs
12 sentyabr 2017-ci il

# Birinci vitse-prezident Mehriban Əliyeva 105 nömrəli körpələr evi-uşaq bağçasında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub




*Sentyabrın 11-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Bakıxanov qəsəbəsində əsaslı şəkildə təmir edilərək yenidən qurulan 105 nömrəli körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış olub.*

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov Azərbaycanın Birinci vitse-prezidentinə körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 1985-ci ildə inşa edilmiş bu müəssisə istifadəyə verildiyi vaxtdan heç vaxt təmir olunmayıb. Sonradan uşaq bağçasının bir hissəsində məcburi köçkünlər yerləşdiyindən müəssisədə ümumilikdə 60 uşaq olmaqla 4 qrup fəaliyyət göstərib. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın tədbirlər planının icrası ilə əlaqədar uşaq bağçasında məskunlaşmış məcburi köçkün ailələri Mehdiabad qəsəbəsində salınmış yeni yaşayış massivinə köçürüldükdən sonra burada əsaslı təmir və yenidənqurma işləri həyata keçirilib. İndi uşaq bağçası 230 uşaq yerlik olmaqla 12 qrupla fəaliyyətə başlayıb. Bütün otaqlar zəruri avadanlıq və havalandırma sistemi ilə təchiz olunub.

Ölkəmizdə uşaqların sosial müdafiəsinin gücləndirilməsi hər zaman dövlətin diqqət mərkəzindədir. Müasir körpələr evi-uşaq bağçalarının istifadəyə verilməsi bunun əyani təsdiqidir. Yeni uşaq tərbiyə müəssisələrinin inşasına, eləcə də mövcud olanların ən müasir tələblər səviyyəsində yenidən qurulmasına dövlət tərəfindən həyata keçirilən proqramlarla yanaşı, Heydər Əliyev Fondu da xüsusi töhfə verir. Heydər Əliyev Fondunun məktəbəqədər təhsil müəssisələrinin yenidən qurulması, bu sahədə ciddi keyfiyyət dəyişikliyinə nail olunması ilə bağlı layihələri uşaqların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində Azərbaycanda aparılan siyasətin uğurlu və məntiqi nəticəsidir. Körpələr evi-uşaq bağçasının ərazisi abadlaşdırılıb, həyətyanı sahədə attraksionlar quraşdırılıb.









# Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir edilən “Qərənfil” körpələr evi-uşaq bağçası balaca sakinlərini qəbul etməyə hazırdır










***Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir edilən “Qərənfil” körpələr evi-uşaq bağçası balaca sakinlərini qəbul etməyə hazırdır.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva paytaxtın Nəsimi rayonunda yerləşən bu körpələr evi-uşaq bağçasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub. Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verərək bildirdi ki, bu bağça 1968-ci ildən fəaliyyət göstərir. 2007-2008-ci illərdə körpələr evi-uşaq bağçasının binasında cari təmir işləri aparılsa da məktəbəqədər təhsil müəssisəsinin əsaslı təmirə ehtiyacı var idi. Burada bu ilin fevral ayında başlanılan təmir nəticəsində uşaq tərbiyə müəssisəsində lazımi şərait yaradılıb. İkimərtəbəli körpələr evi-uşaq bağçası 12 qrupdan ibarətdir. Bu qrupların hər biri 3 otaq olmaqla lazımi inventarla təchiz edilib. Bütün mebel dəstləri və avadanlıq yenisi ilə əvəz olunub. 225 uşaq yerlik müəssisə azyaşlı sakinlərin zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnmələrini təmin edir. Körpələr evi-uşaq bağçasında balacaların təlim-tərbiyəsi ilə məşğul olmaq, həmçinin onların bacarıq və istedadlarını aşkara çıxarmaq üçün hərtərəfli şərait yaradılıb. Üçkorpuslu məktəbəqədər təhsil müəssisəsində müxtəlif yaş qrupları üçün məşğələ və yataq otaqları, idman və musiqi zalları, yeməkxana yaradılıb. 2014-cü ilin fevral ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı zamanı Fondun məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyətin monitorinqinin nəticələri açıqlanıb və ölkədə yeni bağçaların inşasına ehtiyacın olduğu müəyyənləşib. Nəsimi rayonunda əsaslı təmir edilən “Qərənfil” körpələr evi-uşaq bağçası bu istiqamətdə atılan addımlardan biridir. Uşaqların maraqları nəzərə alınaraq bağçanın gözoxşayan həyəti, xüsusi istirahət guşələri var. Burada da yenidənqurma işləri aparılıb, müasir uşaq əyləncə qurğuları quraşdırılıb.

Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, uşaqların yol hərəkəti qaydalarına yiyələnmələri üçün xüsusi guşə yaradılıb. Bundan başqa, uşaq müəssisəsinin ətrafındakı ərazidə də abadlıq işləri görülüb. Bağça ilə tanış olan Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva müəssisənin işinə uğurlar arzuladı.

# Azərbaycan Prezidenti İlham Əliyev aidiyyəti orqanlara Mehman Əliyevin müraciətinə baxılmasını tapşırıb

***Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov hazırda həbsdə olan "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevin və cari ilin iyulunda üç il müddətinə azadlıqdan məhrum olunmuş Aleksandr Lapşinin məsələləri ilə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.***



Əli Həsənov bildirib ki, "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyevə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə ittiham irəli sürülmüş və cari ilin avqustunda onun barəsində həbs qətimkan tədbiri seçilmişdir. Həmin dövrdə Azərbaycan Mətbuat Şurası məsələnin ölkə qanunvericiliyi çərçivəsində ədalətli şəkildə həll olunması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət ünvanlamışdı. Həmçinin Mehman Əliyev dövlətimizin başçısına müraciət edərək barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunmasını xahiş etmişdir.

Qeyd edim ki, hələ 2009-cu ildə Prezident İlham Əliyev Azərbaycanda demokratik prinsiplərin, söz və məlumat azadlığının aliliyini nəzərə alaraq kütləvi informasiya vasitələri əməkdaşlarının peşə fəaliyyətinə görə cinayət məsuliyyətinə cəlb edilməsinin məqsədəmüvafiq olmadığına dair öz rəyini bildirmiş və iradəsini nümayiş etdirmişdir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, 2009-cu ildən ötən dövr ərzində KİV əməkdaşları peşə fəaliyyətinə görə məhkum olunmamışlar.

Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci il fevralın 10-da "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam imzaladığını xatırladan Əli Həsənov bildirib ki, həmin Sərəncam bu kimi və bir sıra digər hallarda məsuliyyətə cəlb olunmuş şəxslərlə bağlı cəmiyyətdən təcrid olunmamaq şərtilə alternativ cəza tədbirlərinin həyata keçirilməsinə tam imkan yaradır.

Bütün bunları nəzərə alaraq Prezident İlham Əliyev "Turan" İnformasiya Agentliyinin direktoru barədə seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması məsələsinə baxılması üçün aidiyyəti orqanlara tapşırıq vermişdir.

Qeyd edim ki, bu qərar Azərbaycanda demokratik prinsiplərin, söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin müstəqilliyinin və jurnalistlərin sərbəst fəaliyyətinin təmin edilməsinə dair Azərbaycan Prezidentinin dəyişməz mövqeyi və ali iradəsinin təcəssümüdür.

Prezidentin köməkçisi cari ilin iyulunda üç il müddətinə azadlıqdan məhrum olunmuş Aleksandr Lapşinin məsələsi ilə bağlı sualı da cavablandırıb. O qeyd edib ki, Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, barəsində cəza tədbiri seçilmiş Lapşinin azadlığa buraxılması və digər ölkəyə təhvil verilməsi daim gündəmdə olub. Sadəcə onun vətəndaşı olduğu İsrail dövləti tərəfindən müraciət gecikdiyinə görə, bu günə kimi müvafiq qərar ləngimişdir. Hazırda belə müraciət daxil olmuşdur və Aleksandr Lapşin barədə qərar qəbul edilmişdir.

# Pakistanda "Mən Azərbaycan haqqında nə bilirəm" məqalə müsabiqəsinin qalibləri ilə görüş keçirilib



Azərbaycanın Pakistandakı səfirliyində bu ölkənin gəncləri arasında ilk dəfə təşkil olunun "Mən Azərbaycan haqqında nə bilirəm" məqalə müsabiqəsinin qalibləri ilə görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə Pakistandakı səfirimiz Əli Əlizadə qalibləri təbrik edərək onlara Azərbaycanın siyasi və tarixi reallıqları, sosial-iqtisadi inkişafı, hər iki ölkə liderlərinin səyləri ilə möhkəm təməllər üzərində bərqərar edilən Azərbaycan-Pakistan dostluq və qardaşlıq münasibətləri, təcavüzkar Ermənistanın etnik təmizləmə və terrorçuluq siyasəti haqqında məlumat verib. Azərbaycana göstərdikləri marağa görə gənclərə təşəkkür edən səfir onların yazdıqları məqalələrin önəmli mövzuları əhatə etdiyini vurğulayıb. Səfir deyib ki, qaliblər sentyabr ayında Azərbaycana bir həftəlik səfər etmək imkanı qazanıb, onlar yeddi gün ərzində ölkəmizin tarixi, mədəniyyəti, iqtisadi nailiyyətləri ilə daha yaxından tanış ola biləcəklər. Müsabiqənin qalibləri yaradılan şəraitə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını bildirib, bu ölkə haqqında daha yaxından məlumat əldə edəcəklərini və hər şeyi öz gözləri ilə görməkdən məmnun olacaqlarını söyləyiblər.

Xatırladırıq ki, Azərbaycan Xarici İşlər Nazirliyi, Gənclər və İdman Nazirliyi və Pakistandakı səfirliyimizin təşkilatçılığı ilə Pakistan gəncləri arasında ilk dəfə olaraq keçirilən bu müsabiqə "Qarabağ münaqişəsinin reallıqları", "Azərbaycanın tarixi, incəsənəti və mədəniyyəti", "Azərbaycanın əhalisi, dili və adət-ənənələri", "Azərbaycanın beynəlxalq siyasətdəki rolu", "Heydər Əliyev: Azərbaycan xalqının ümummilli lideri", "Azərbaycan və Pakistan: tarixi əlaqələr və perspektivlər", "Azərbaycanın iqtisadi inkişafı", "Azərbaycanın neft və qaz strategiyası" və digər mövzuları əhatə edib. Pakistanın müxtəlif universitet və digər təhsil müəssisələrindən müsabiqə komissiyasına məqalələr təqdim edən 200-ə yaxın iştirakçı arasından 5 nəfər qalib adını qazanıb.

# Elmar Məmmədyarov Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri ilə görüşüb



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni rəhbəri Kestutis Yankauskasla görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov səfir Kestutis Yankauskası Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri qismində fəaliyyətə başlaması münasibətilə təbrik edib.

Səfir Kestutis Yankauskas fəaliyyəti dövründə Azərbaycan ilə Avropa İttifaqı arasında tərəfdaşlığın inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib. Görüşdə Azərbaycan-Avropa İttifaqı Tərəfdaşlıq Sazişi üzrə danışıqlar prosesinin növbəti mərhələsi ilə bağlı müzakirələr aparılıb. Danışıqlar prosesinin konstruktiv və qarşılıqlı anlaşma şəraitində aparılmasından məmnunluq ifadə olunub. Avropa İttifaqı ilə Azərbaycan arasında enerji, nəqliyyat, mülki aviasiya və humanitar sahədə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin və Ermənistanın Azərbaycana qarşı davam edən işğalçılıq siyasətinin region üçün əsas təhdid olduğunu deyən nazir Elmar Məmmədyarov münaqişənin həlli üzrə aparılan danışıqlar prosesi haqqında məlumat verib.

# Əli Həsənov: “Prezident İlham Əliyev Aleksandr Lapşini əfv etdi”



Azərbaycan Prezidenti İlham Əliyevin Aleksandr Lapşinin əfv olunması haqqında Sərəncamını şərh edən Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a bildirib ki, Sərəncama müvafiq olaraq, Lapşin Azərbaycanda cəzasının qalan hissəsini çəkməkdən azad olunur və yaqin ki, yaxın vaxtlarda o, İsrailə təhvil veriləcək. Əli Həsənov onu da bildirib ki, Lapşinin Azərbaycanda cəza çəkməkdən azad olunması və İsrail Hökumətinə təhvil verilməsi məsələsi çoxdan idi ki, iki dövlətin müvafiq orqanları arasında müzakirə olunurdu. Bununla bağlı belə razılığa gəlinmişdi ki, cənab Prezidentin əfv Sərəncamından sonra Azərbaycan Hökuməti Lapşini İsrail tərəfinə təhvil verir və Lapşin bundan sonrakı öhdəliyini İsrail hökumətinin qanunlarına müvafiq olaraq yerinə yetirir. Lakin təəssüflər ki, İsrail rəsmiləri onun təhvil verilməsi ilə bağlı proseduru bir xeyli uzatdılar. Bunun nəticəsi olaraq, dünən xoşagəlməz bir hadisə yaşanıb. Lapşin cəzaçəkmə müəssisəsində özünəqəsd cəhdinə əl atıb. Düzdür, həbsxana nəzarətçilərinin ayıqlığı və çevikliyi nəticəsində bu qəsdin qarşısı alınıb, təcili olaraq ona lazımi tibbi yardım göstərilib və hazırda Lapşin həkim nəzarəti altında müalicəsini davam etdirir.

Əli Həsənov qeyd edib ki, cənab Prezidentin əfv Sərəncamı imzalamasından sonra hazırda Lapşinin təhvil verilməsi məsələsi ilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və İsrail səfirliyi məşğul olur. Yəqin ki, qısa vaxtda bu proses başa çatacaq.

# Naxçıvanda dünyanın ən müasir mebelləri ilə rəqabətə girə biləcək keyfiyyətli məhsullar istehsal olunur



Naxçıvan Muxtar Respublikasında sənaye potensialının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Bunun üçün sənaye istehsalı ilə məşğul olan ayrı-ayrı müəssisələr yaradılır ki, bu da daxili bazarın tələbatının ödənilməsi baxımından müstəsna əhəmiyyət daşıyır. Belə müəssisələrdən biri də “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Bu günlərdə adıçəkilən ünvanda olduq. İş prosesi ilə tanışlıq zamanı öyrəndik ki, istehsal müəssisəsi 2010-cu ildə fəaliyyətə başlayıb. Burada müxtəlif çeşiddə keyfiyyətli məhsul istehsalı üçün Almaniya, İtaliya və Türkiyədən müasir texnoloji avadanlıqlar alınıb quraşdırılıb. Hazırda fabrikdə divan-kreslo və yumşaq oturacaqlı stullar, həmçinin ofis, mətbəx, yataq, qonaq və uşaq otağı mebelləri, müxtəlif qapı-pəncərə modelləri hazırlanır.

Bu ünvanda müştərilər müxtəlif ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, binalar üçün müxtəlif avadanlıqları seçə, dizayn-dekorasiya xidmətlərindən yararlana bilərlər. Ötən dövrdə artan tələbat nəzərə alınaraq yeni istehsal sahələrinin yaradılmasına təşəbbüs göstərilib. Bu təşəbbüsə dövlət qayğısı nəticəsində nail olunub. Belə ki, fabrik tərəfindən silikon yorğan-döşək və yataq bazası istehsalı sahələrinin biznes-planı hazırlanaraq muxtar respublikanın Sahibkarlığa Kömək Fonduna təqdim edilib. Layihəyə uyğun olaraq, müəssisənin ərazisində yeni istehsal sahəsi üçün bina inşa olunub. Türkiyənin “Elektroteks” və “İMS Makina” şirkətlərindən avadanlıqlar alınıb gətirilib və idxal olunan dəzgahlar həmin şirkətlərin mütəxəssisləri tərəfindən quraşdırılıb. İstehsal sahəsində çalışan yerli mütəxəssislərin hazırlanması üçün işçilərin ixtisasartırma kurslarında iştirakı təmin edilib. Yeni yaradılan istehsal sahəsinin gücü saatda 200 ədəd yorğan, gündə 100 ədəd döşək və 100 ədəd yataq istehsalına çatır.

Müəssisədə məhsulların keyfiyyətinə nəzarət göstərilməsi üçün laboratoriyada müasir avadanlıqlar quraşdırılıb. Hazırlanan məhsulların satışı da diqqət mərkəzində saxlanılır. “Gəmiqaya” tanıtım nişanı ilə istehsal olunan bu məhsullar fabrikin sərgi-satış salonunda, Naxçıvan şəhərinin “Təbriz” küçəsində, Babək məhəlləsində və Ordubad şəhərində fəaliyyət göstərən mebel mağazalarında satışa çıxarılır. Sevindirici haldır ki, müəssisənin istehsal etdiyi müxtəlif dizaynlı mebellər ölkəmizin digər regionlarında da böyük alıcı rəğbəti qazanıb. Bunlar nəzərə alınaraq Bakı şəhərinin Nərimanov və Neftçilər prospektlərində, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində və Azərbaycanın digər bölgələrində satış mərkəzləri yaradılıb. Müəssisə işçiləri qazanılan nailiyyətlərlə kifayətlənməyib və gələcəkdə daha böyük uğurlara imza atmaq niyyətindədirlər.

Bu gün hər bir muxtar respublika sakini xaricə getmədən Naxçıvanda istehsal olunan, dünyanın ən müasir mebelləri ilə rəqabətə girə biləcək keyfiyyətli məhsullar əldə edə bilər. Bu imkanı isə sakinlərə “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyəti yaradıb.

*AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu*



# Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq genişlənir



***Dünən Azərbaycan Respublikası Baş nazirinin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini - İcra katibi Əli Əhmədov Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Katibi, Siyasi Büronun üzvü, Vyetnam KP MK-nın Xalq kütlələri ilə iş şöbəsinin müdiri xanım Çionq Txi Mayın rəhbərlik etdiyi nümayəndə heyətini partiyanın mənzil-qərargahında qəbul etdi.***

Görüşdə Əli Əhmədov qonaqları salamlayaraq Azərbaycanla Vyetnam arasında əməkdaşlıq münasibətlərinə nəzər saldı. O, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası, eləcə də, Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək, münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu bildirdi. Əli Əhmədov qeyd etdi ki, bu səfər iki ölkənin hakim partiyaları arasında da əlaqələrin daha da inkişaf etməsinə şərait yaradacaq.

Səmimi qarşılamaya görə təşəkkürünü bildirən Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) katibi Çionq Txi May Azərbaycanda uğurlu sosial-iqtisadi inkişafa diqqət yetirərək, bunun ölkə əhalisinin sosial rifah halının yaxşılaşmasına şərait yaratdığını bildirdi. Azərbaycanla Vyetnam arasında ənənəvi əməkdaşlıq münasibətlərinə nəzər salaraq ölkələrimiz və xalqlarımız arasında ənənəvi dostluq münasibətlərinə toxundu. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasının 25 illiyinin tamam olacağını qeyd edən Çionq Txi May bu münasibətlərin əsasının Vyetnam xalqının lideri Xo Şi Min və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulduğunu bildirdi. Qeyd etdi ki, Azərbaycanda vaxtilə neft sahəsində təhsil alan vyetnamlı tələbələr hazırda Vyetnamda yüksək vəzifə tuturlar.

O, çıxışında Azərbaycan Prezidenti Cənab İlham Əliyevin bir neçə il bundan əvvəl Vyetnama dövlət səfərini də diqqətə çatdırdı. Çionq Txi May əməkdaşlığın daha da genişlənməsində maraqlı olduqlarını vurğuladı.

Görüşdə YAP İcra katibinin müavini, Milli Məclisin komitə sədri Siyavuş Novruzov, YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, YAP-ın beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva iştirak edirdilər.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni tədris binası istifadəyə verilib



***Sentyabrın 11-də Naxçıvan şəhərində "İstedad-XXI əsr" hazırlıq kursları üçün yeni tədris binası istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsib.***

Məlumat verilib ki, 300 şagird yerlik və 4 mərtəbəli yeni tədris binasında 2-si elektron lövhəli olmaqla 20 sinif otağı, 2 kompüter otağı, müəllimlər otağı, imtahan mərkəzi, iclas zalı, qeydiyyat və mühasibatlıq otaqları, eləcə də bufet fəaliyyət göstərir. Binada 12 kompüter quraşdırılıb və internetə qoşulub. Kursda fərdi və qrup şəklində abituriyent hazırlığı, 5-8-ci siniflər üzrə hazırlıq, dövlət qulluğuna hazırlıq, məktəbəqədər hazırlıq, ingilis, rus, alman, fransız, ispan və fars dilləri üzrə kurslar, məntiq kursları, kompüter və magistraturaya hazırlıq aparılır. Naxçıvan şəhəri ilə yanaşı, bu tədris ilindən Şərur, Ordubad, Culfa və Şahbuz rayonlarında da istedad kurslarının filialları fəaliyyət göstərir. Tədris prosesində Dövlət İmtahan Mərkəzinin proqramlarına uyğun dərs vəsaitləri və testlərdən istifadə edilir. Yay tətili dövründə isə tədris proqramına uyğun olaraq yay məktəbləri təşkil olunur, şagirdlər müxtəlif zəka təlimlərində və bilik yarışlarında iştirak edirlər. Kurs müddətində və kurs sonunda şagirdlər təcrübəli müəllimlər və psixoloqlar tərəfindən psixoloji vəziyyətin yaxşılaşması üçün seminar və treninqlərə cəlb olunurlar.

Tədris binasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamına uyğun olaraq "Oxunması zəruri olan kitablar"dan ibarət guşə yaradılıb. İmtahan mərkəzində quraşdırılan müasir avadanlıqlar imkan verir ki, ümumtəhsil məktəblərində keçirilən sınaq imtahanlarının nəticələri onlayn şəkildə hər bir şagirdə fərdi iş nömrəsi vasitəsilə çatdırılsın. Həmçinin binada elektron idarəetmə proqramı mövcuddur. Hər bir filial mərkəzlə bu sistem vasitəsilə əlaqəli şəkildə fəaliyyət göstərir, eyni zamanda valideynlər övladlarının nəticələrini onlayn izləyə bilirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov "İstedad-XXI əsr" hazırlıq kurslarının yeni tədris binasının istifadəyə verilməsi münasibətilə kursun dinləyicilərini və pedaqoji kollektivi təbrik edərək deyib: Ölkəmizdə təhsilə qayğı və bu sahədə dönüşün yaradılması ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə mümkün olmuşdur. Ulu Öndər Sovet Birliyi dövründə Azərbaycanda təhsilin səviyyəsinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirmiş, yaxşı oxuyan gənclər ittifaqın yüksək ali məktəblərində təhsil almağa göndərilmişdir. Məhz həmin illərdə yetişən gənclər Azərbaycan müstəqillik qazandıqdan sonra ölkəmizin inkişafında yaxından iştirak etmiş, dövlət müstəqilliyinin qorunmasına öz töhfələrini vermişlər. Bu gün təhsil alan gənclər isə müstəqil Azərbaycanın gələcək təminatçılarıdır.

Ali Məclisin Sədri dahilərin "Əgər bir ölkənin gələcəyini bilmək istəyirsənsə, onun gəncliyinə nəzər salmaq lazımdır", - fikrini xatırladaraq deyib: Əgər gənclik təhsilli, dünyagörüşlü və vətənpərvərdirsə, onda ölkə də inkişaf edəcək, dövlət müstəqilliyi əbədi olacaqdır. Bu mənada hər bir ölkənin inkişafı, müstəqilliyinin qorunması və etibarlı gələcəyi təhsillə bağlıdır. Təhsilə qoyulan sərmayə ölkənin gələcəyinə qoyulan sərmayədir. Bu gün müstəqil Azərbaycanda təhsilin inkişafına xüsusi diqqət yetirilir, müasir tədrisin tələblərinə uyğun infrastruktur yaradılır, hərtərəfli biliyə malik, intellektli və vətənpərvər gənclər yetişdirilir, yaxşı oxuyan gənclər xaricdə ali təhsil almağa göndərilirlər. Eyni zamanda, ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında orta, peşə, orta ixtisas, ali və akademik təhsil pillələri üzrə yaradılan şərait təhsil sahəsində qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir.



Ali Məclisin Sədri deyib: Təhsili inkişaf etdirməyin müxtəlif yolları vardır. Bunların içərisində orta təhsil mühüm yer tutur. Çünki təhsilin əsası orta məktəblərdə qoyulur. Şagirdlər məktəblərdə tədris proqramına uyğun biliklərə yiyələnməklə yanaşı, həm də yaradılan zəngin kitabxanalardan istifadə edərək dünyagörüşlərini formalaşdırırlar. Gənclərin hərtərəfli biliklərə malik olmasında hazırlıq kurslarının da mühüm rolu vardır. Dünya tədris sistemində qəbul olunmuş bir prinsip var: gənclər dəqiq elmləri yaxşı oxumalı, xarici dil bilməli və seçdiyi ixtisasa uyğun fənləri dərindən öyrənməlidir. Qarşıya qoyulan bu vəzifələr ümumtəhsil məktəbləri ilə yanaşı, hazırlıq kurslarında da tədrisin əsasını təşkil etməlidir. Hər bir gənc yaradılan tədris şəraitindən düzgün istifadə etməli, Ana dilini yaxşı bilməli, xarici dil öyrənməli, dəqiq elmləri və seçdiyi ixtisas üzrə fənləri yaxşı oxumalıdır. Bu gün "İstedad-XXI əsr" hazırlıq kurslarında orta məktəb bazasında hazırlıq, dövlət qulluğuna qəbul üçün hazırlıq, xarici dil öyrənmək və digər sahələr üzrə kurslar fəaliyyət göstərir. Bu da gənclərin hərtərəfli biliklərə yiyələnməsinə və dünya tədris sisteminə inteqrasiyasına imkan verəcəkdir.

Ali Məclisin Sədri deyib: Muxtar respublikada təhsil sahəsində görülən işlər qarşıda duran əsas vəzifələrdəndir. Son illər muxtar respublikada yeni məktəb binaları tikilərək istifadəyə verilmiş, müəllimlərin diaqnostik qiymətləndirilməsi aparılmış, tədrisin hərtərəfli təşkili üçün lazımi şərait yaradılmışdır. Bu tədris ilində də muxtar respublikada yeni məktəb binaları istifadəyə veriləcəkdir. Həmçinin muxtar respublikanın bütün ümumtəhsil məktəblərində xarici dillər tədris olunur. Bu gün orta məktəbləri və hazırlıq kurslarını uğurla başa vuran gənclər istənilən ölkədə ali təhsil almaq imkanına malikdirlər. Bütün bunlar ona görə həyata keçirilir ki, biz ölkəmizin gələcəyini düşünürük. Bu gələcəyin təminatçıları olan gənclərin yaxşı təhsil almasını, dünyagörüşlü və vətənpərvər böyüməsini istəyirik. Naxçıvan Muxtar Respublikasında hər il ali məktəblərə qəbul olanların və yüksək bal toplayanların sayının artması, dövlət qulluğuna qəbulda gənclərin uğurlu nəticə göstərməsi onu deməyə əsas verir ki, artıq ölkəmizdə təhsilə göstərilən qayğı, bu sahədə yaradılan şərait öz bəhrəsini verir. "İstedad-XXI əsr" hazırlıq kursları üçün istifadəyə verilən yeni tədris binası və yaradılan şərait bu işləri daha da sürətləndirəcək, gənclər bundan sonra da hərtərəfli təhsil alaraq göstərilən etimadı doğruldacaqlar. Ali Məclisin Sədri kollektivi bir daha təbrik edib, təşkilatçılara təşəkkürünü bildirib.

"İstedad-XXI əsr" hazırlıq kurslarının direktoru Elbrus İsayev tədbirdə çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafı sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq 2014-2015-ci tədris ilində "İstedad-XXI əsr" hazırlıq kursları fəaliyyətə başlayıb. Kurs təlim-tərbiyə prosesinin təşkilini, tədris materiallarının keyfiyyətlə mənimsənilməsini, şagirdlərin qabiliyyətlərinin inkişaf etdirilməsini əsas fəaliyyət istiqaməti kimi müəyyən edib. Burada ali məktəblərə qəbul olmaq istəyən abituriyentlər üçün qrup və fərdi şəkildə dərslər təşkil olunur. Kursun fəaliyyət istiqamətlərindən biri də muxtar respublika ümumtəhsil məktəblərinin şagirdləri üçün aylıq test-sınaq imtahanlarının keçirilməsidir. Artıq kurs tərəfindən dərs vəsaitləri də çap olunur, tədris proqramının daha operativ şəkildə mənimsənilməsi diqqətdə saxlanılır. Fəaliyyət göstərdiyi dövrdə kursun məzunlarından 86-sı 500-700 arası bal toplayıb ki, onlardan da 5-i Prezident təqaüdünə layiq görülüb. 2016-2017-ci tədris ili üzrə kursu bitirən 189 məzunun hər biri ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Elbrus İsayev muxtar respublikada təhsilin hərtərəfli inkişafına göstərilən diqqət və qayğıya görə kollektiv adından minnətdarlıq edib. Tədris korpusunda fərdi qazanxana və mərkəzi soyutma sistemi quraşdırılıb, binanın həyətində abadlıq işləri aparılıb.

# Azərbaycan ümumbəşəri humanist dəyərlərə söykənən dövlətdir

## *Prezident İlham Əliyevin bu kimi qərarları ailələrin sevincinə səbəb olur*

***Məlum olduğu kimi, ölkə Prezidenti İlham Əliyevin tövsiyəsi ilə "Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev və Nardaran hadisələrinə görə həbs edilənlərin bir qrupu azadlığa buraxıldı. Dövlət başçısının bu kimi təşəbbüsləri ailələrin böyük sevincinə səbəb olur.***

Demokratik dəyərlərin başlıca meyarlarından sayılan insan hüquq və azadlıqlarının təmin olunmasına və müdafiəsinə diqqətlə yanaşan Azərbaycan hakimiyyəti cəmiyyətdə humanizm ənənələrinin təşəkkül tapmasına və möhkəmlənməsinə də hər zaman həssaslıqla yanaşmışdır. Bunun da kökündə tarixi əsaslar mövcuddur. Məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra demokratikləşmə ilə yanaşı, cəmiyyətimizin bütövlüyünə xidmət edən humanizm ənənələrinin təməli qoyulmuşdur.



Məlum olduğu kitmi, bu gün artıq Azərbaycanda əfvetmə institutu formalaşıb və bu, digər ölkələrə göstəriləcək örnəkdir. Möhkəm təməllər üzərində əsası qoyulmuş humanizm siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin edib, hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək, cinayət törətmiş şəxslərin bağışlanması ənənəsini yaşadaraq, inkişaf etdirib. Bütün bunları təhlil etdikcə, belə bir əhəmiyyətli məqam ortaya çıxır ki, ümumiyyətlə, mütəmadi qaydada cinayət törədənlərin əfv olunmaları istər humanizm, istər əxlaqi, istərsə də cəmiyyətdaxili harmoniyanın qorunması baxımından, böyük önəm daşıyan addımdır. Eyni zamanda, dövlətin məhkumlara etimad göstərərək, onları əfv etməsi həmin insanların özlərinə olan inamını artırır, gələcəkdə öz həyatlarını qanunlara hörmət çərçivəsində davam etdirərək, ölkənin layiqli vətəndaşı olmağa həvəsləndirir.

Digər bir məqamı da vurğulamaq lazımdır ki, bu cür humanizm prinsipləri ilə Ulu Öndər Heydər Əliyevin adını daşıyan və dünyaya öz xeyirxah əməlləri ilə səs salan fondun prezidenti, ölkənin Birinci Xanımı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da hər zaman öz xeyirxah təşəbbüsləri olmuşdur. Ulu Öndər Heydər Əliyevin mərhəmət və insanpərvərlik məfkurəsindən çıxış etmək, humanizm ideyalarını həyata keçirmək Heydər Əliyev Fondunun da başlıca məramlarından biridir. Bunun da tarixi əsasları var. Məsələn, 2007-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə parlamentin qəbul etdiyi "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar da Ulu Öndərin əsasını qoyduğu humanizm ənənələrinin davamının əyani təcəssümü idi. Onda Ulu Öndərin anadan olmasının ildönümü münasibətilə qəbul edilən amnistiya qərarı ilə 9 mindən artıq məhkum bağışlanılmışdı. Bu siyasət və bu mütərəqqiçilik addımı hər birimizin qəlbində fərəh və qürur hissləri oyadır.

Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu mətbuata dövlət qayğısı siyasətini uğurla davam etdirir. Məhz bunun nəticəsidir ki, son illərdə ölkəmizdə azad mətbuatın inkişafına dövlət qayğısı olduqca yüksək səviyyədədir. Milli mətbuatın yaranmasının 130, 135 və 140 illik yubileylərində Prezident İlham Əliyevin jurnalistləri fəxri adlara layiq görməsi, eyni zamanda, qəzetlərə birdəfəlik yardımların ayrılması azad sözün qorunması, inkişaf etməsi, ümumən, Azərbaycanda mətbuatın inkişafına, peşəkarlığın yüksəldilməsinə öz töhfəsini verib. Prezident İlham Əliyevin göstərişi ilə qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının dövlət büdcəsinin vəsaitləri hesabına ödənilməsi, sonrakı dövrdə isə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasının hazırlanması, Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) yaradılması bu sahədə ciddi dönüşün və irəliləyişin yaranmasına gətirib çıxardı. Məhz KİVDF-nin, mütəmadi olaraq keçirdiyi yazı müsabiqələri, o cümlədən, fond tərəfindən KİV-lərə birdəfəlik yardımların ayrılması, KİV-lərin irəli sürdüyü layihələrə maddi dəstəyin verilməsi ölkəmizdə jurnalistikanın inkişafında, bu sahəyə olan marağın daha da artmasında müstəsna rol oynadı.

Göründüyü kimi, Prezident İlham Əliyevin bu diqqət və qayğısı ölkəmizdə azad sözün inkişafına əsl stimul sayılır. Bu mənada, jurnalistlər də ölkə başçısının diqqət və qayğısını yüksək dəyərləndirirlər. Belə ki, Prezident İlham Əliyev 2010, 2013 və 2017-ci illərdə "Ruh" Jurnalistləri Müdafiə Komitəsinin qəzetlər, informasiya agentlikləri, jurnallar, jurnalist təşkilatları və internet-media resursları arasında keçirdiyi sorğuya əsasən, "Jurnalistlərin dostu" seçilib. Yəni jurnalistlər hər zaman ölkə başçısını özlərinin ən yaxın dostu sayırlar.

Bir sözlə, Azərbaycanda mətbuatın inkişafının, o cümlədən, söz azadlığı və plüralizmin yüksək səviyyədə olmasının arxasında illərlə gələnən yol və formalaşan ənənə dayanır. Bu yolda qarşıya çıxan problemlər isə cəmiyyət-dövlət tandeminin birgə səyi nəticəsində aradan qaldırılır. Bu birgə fəaliyyət nəticə etibari ilə dövlətin inkişafına və ölkəmizdə söz azadlığının daha da möhkəmlənməsinə xidmət göstərir. Heç şübhəsiz, Azərbaycan mətbuatının inkişaf tarixində açılan bu yeni mərhələ, birmənalı olaraq Prezident İlham Əliyevin mediaya, söz azadlığına qayğısını və diqqətini özündə təcəssüm etdirir.

**R.KAMALQIZI**




# YAP-ın yaranmasının 25-ci ildönümü yüksək təntənə ilə qeyd olunacaq

Dünən Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı idarə heyətinin iclası keçirilib. İclasda çıxış edən YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva öncə 11 sentyabr 1993-cü ildə ilk təsis iclası keçirilmiş YAP Nizami rayon təşkilatının yaradılması haqqından danışdı.

Bu gün Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi təşkilatları içərisində istər kəmiyyətcə, istərsə də keyfiyyətcə bərabəri olmayan bir partiyadır. Sınaqlardan çıxmış, böyük və şərəfli yol keçmiş Yeni Azərbaycan Partiyası cəmiyyətdə özünəməxsus aparıcı yer tutub. YAP-ın rayon təşkilatlarından olan Nizami rayon təşkilatının da partiyanın əldə etdiyi nailiyyətlərdə öz payı var. Partiyamızım bir parçası olan YAP Nizami rayon təşkilatı rayonun bütün sahələrində yüksək aktivlik nümayiş etdirməklə, insanların partiyaya və dövlətçiliyə olan münasibətlərinin ifadəçisinə çevrilib. Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı 1993-cü il 11 sentyabr tarixində Heydər Əliyev adına Neft Emalı Zavodunun akt zalında 76 nəfərin iştirakı ilə yaranıb. Bu gün isə rayon təşkilatının sıraları kəmiyyət və keyfiyyət baxımından sürətlə genişlənir. Hazırda 143 ərazi ilk partiya təşkilatında 13 mindən çox insan birləşib".

Tədbirdə bildirildi ki, bu gün Azərbaycan Respublikasının ictimai-siyasi və sosial-iqtisadi həyatının ən aparıcı siyasi qüvvəsi Yeni Azərbaycan Partiyasıdır: "YAP hazırda da Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları əsasında və Prezident İlham Əliyevin Sədrliyi ilə ölkədə siyasi-ideoloji fəaliyyətini genişləndirir, vətəndaş-dövlət münasibətlərinin inkişafı və möhkəmlənməsi prosesinə öz töhfəsini verir, siyasi-ictimai sabitliyin təmin edilməsində əhəmiyyətli rol oynayır. Bu səbəbdən də, partiyanın yubileyi Nizami rayonunda da yüksək təntənə ilə qeyd edilməlidir".

Çıxışlardan sonra tədbirlər planı təsdiqləndi və YAP-ın yubileyi münasibətilə təşkil olunacaq tədbirlərin yüksək səviyyədə baş tutması üçün müvafiq tapşırıqlar verildi və iş bölgüsü aparıldı.

Sonda cari məsələlər müzakirə olundu.

**R.HÜSEYNOVA**

# Azərbaycanın dövlət sərhədini pozduğuna görə 47 nəfər saxlanılıb

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən bu ilin avqust ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib, qaçaqmalçılığa, qeyri-leqal miqrasiyaya, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə uğurla davam etdirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, ay ərzində dövlət sərhədini pozduqlarına görə 47 nəfər saxlanılıb. Onların 26-sı Azərbaycan, 8-i Özbəkistan, 5-i Rusiya, 3-ü İran, 2-si Tacikistan, 2-si Bolqarıstan, biri Gürcüstan vətəndaşı olub.



Sərhəd rejim qaydalarını pozarkən 1343 halda 1702 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb. Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq mühafizə orqanları tərəfindən axtarışda olan 496 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilib. Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri nəticəsində 2 kiloqram 139,7 qram narkotik maddə aşkar edilərək götürülüb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri təqribən 231 min 509 manat olan qaçaqmal, o cümlədən 1 ədəd pnevmatik tapança, 1 ədəd naqan tapançası, 2 ədəd siqnal tapança, 3 ədəd mina TM, 29 min 170 ABŞ dolları, 20 min 750 Rusiya rublu, 35 min zəli, 3 qayıq, 890 qutu pirotexniki vasitə, 22 min 270 qutu siqaret, 14 mobil telefon, 380 ədəd müxtəlif növ dərman preparatları, spirtli içkilər, sənaye və kənd təsərrüfatı malları saxlanılıb. Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

# İşğalçı ölkə təlatümlər burulğanında

## *Ermənilər Sarkisyan hakimiyyətinin Qarabağ siyasətindən narazıdırlar*



***Artıq 25 ildir ki, Ermənistanını üzləşdiyi problemlərin həlli üçün Dağlıq Qarabağ münaqişəsinin çözülməsi üçün Azərbaycanla danışıqlar masasında Qarabağ konfliktinin həlli istiqamətində real addımların atılması çox mühüm şərtdir. Ermənistanın keçmiş baş naziri Qrant Baqratyan bildirir ki, Qarabağ məsələsi Ermənistanın bütün fəlakətlərinin kökündə dayanır: "Çox təəssüf ki, Sarkisyan bu münaqişənin həllində istənilən addımları atmır. Çünki münaqişənin mövcudluğu hakimiyyətə sərf edir. Buna görə də, biz parlament seçkilərində bu hakimiyyətin dəyişməsinin ilk əsasını qoymalıyıq. Çünki bu hökumətin fəaliyyəti ona yönəlib ki, siz hamınız kasıb olub, seçkiöncəsi rüşvəti gözləməlisiniz. Hökumətin məqsədi, məhz buna görə sizi səfalət içərisində saxlamaqdır".***



Qrant Baqratyan "Joxovurd" qəzetinə müsahibəsində bildirib ki, Ermənistan hər an partlayacaq bombanı xatırladır: "Ölkə əhalisi iş tapa bilmir, çətin şərtlər altında həyatına davam edir. Bu da sosial etirazları gücləndirir".

Sabiq baş nazir cəbhədə son günlərdə artan gərginliyn kökündə, məhz bu amilin dayanmasını bildirir: "Ermənistanda hansısa ölkə əhəmiyyətli hadisə olanda, cəbhədə vəziyyət gərginləşir. İndi aprel seçkiləri yaxınlaşdıqca, cəbhədə vəziyyətin niyə birdən-birə gərginləşməsinin səbəbləri bəllidir. Ermənistanda ən böyük problem sosial təminatla bağlıdır. Serj Sarkisyan indiyədək hakimiyyətdəki yerini möhkəmləndirməkdən başqa heç nə etməyib. Doqquz ildə bu klan Ermənistanı səfillərin ölkəsinə çevirib. Artıq Ermənistanın dövlət borcu 5,2 milyard dollar təşkil edir. Xarici borc isə 8 milyard dollardır. Son 10 il ərzində ölkədə yoxsulluğun göstəricisi, rəsmi olaraq 33 faizə yüksəlib".

Ermənistannı əsas müxalifət qüvvəsi olan "Ohanyan Raffi Oskanyan" blokunun təmsilçisi olan keçmiş müdafiə naziri Seyran Ohanyan bildirir ki, problemlərin həlli üçün indiki hakimiyyətin dəyişməsi şərtdir və o, Qarabağ məsələsinin həllinin uzanmasının heç də az rol oynamadığını da qeyd edir: "Qarabağ münaqişəsinin həllinin uzanması ölkənin təhlükəsizlyini də ciddi şəkildə təhdid edir. Bunun ən bariz təsdiqi cəbhədə həyatını itirən erməni hərbçilərinin sayının artmasıdır".

Məhz bu səbəbdən də, artıq cari ilin avqus ayının 18-dən başlayaraq Ermənistanda vəziyyətin çərçivədən çıxıb və erməni xalqı mitinqlərə rəvac verib. Bu isə işğalçı ölkənin prezidenti Serj Sarkisyanı çıxılmaz vəziyyətə salıb. Belə ki, Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış hərbi-siyasi vəziyyət, təmas xəttində olan son döyüşlər, ermənilərin verdiyi itkilər, həmçinin, hökumətə qarşı etiraz edən vətəndaş hərəkatının həbs olunmuş üzvlərinin azadlığa buraxılması tələbi ilə oturaq aksiya keçirməyi planlaşdırmağa başlanılıb.

Erməni ekspertləri və siyasətçiləri də son günlər cəbhə xəttində baş verən olayların Sarkisyan hakimiyyəti üçün uğurlu olmadığını vurğulayıblar. Politoloqlar aydın şəkildə etiraf edirlər ki, bu şəkildə davam edərsə, Ermənistan adlı dövlət xəritədən silinəcək.

### L.Ter-Petrosyan: "Nə qədər ki, Qarabağ problemi çözülməyib, Ermənistan normal dövlət olmayacaq"

Erməni Milli Konqres Partiyasının sədri Levon Ter-Petrosyan da politoloqların fikirləri ilə razılaşdığını bildirib. Keçirilən mitinqdə də rejimin dövlətin qanunlarını deyil, oğru qanunlarını rəhbər tutduğunu bildirib: "Ölkədə özbaşınalıq və talançılıq baş alıb gedir. Dövlət reketi hakimiyyətin fəaliyyətinin əsas məzmununu təşkil edir". Müxalifət liderinin fikrincə, S.Sarkisyan ölkənin maraqlarını qurban verməklə bahasına özünü legitimləşdirir və "erməni soyqırımı", erməni-türk münasibətləri kimi məsələlərdə güzəştlərə hazır olduğunu nümayiş etdirir. O, problemin həllinin də təhlükə altında olduğunu söyləyib: "Mən dünyada Dağlıq Qarabağın müstəqilliyini tanıyacaq dövlət görmürəm. Öz eqoist yanaşmaları ilə, o, ölkəni hərraca çıxarıb. Bu gün Ermənistan seçim qarşısındadır: ya Qarabağ probleminin həllində kompromis, ya da uzun illər ərzində iqtisadi durğunluq, aşağı yaşayış səviyyəsi. Çünki Ermənistan normal dövlət olmayacaq".

### Qabil Hüseynli: "Ermənistanın hazırda yürütdüyü xarici siyasət Serj Sarkisyanın hakimiyyət oyunları kimi qiymətləndirilməlidir"

Politoloq Qabil Hüseynli də bildirib ki, Ermənistanın düşünülmüş, ideoloji-siyasi əsasa malik xarici siyasət apardığını demək yanlış olar: "Ermənistanın hazırda yürütdüyü xarici siyasət Serj Sarkisyanın hakimiyyət oyunları kimi qiymətləndirilməlidir. Burada bütöv Ermənistan dövlətinin və erməni xalqının rifahından söhbət gedə bilməz. Sarkisyan artıq ciddi siyasi manevrlərə başlayıb. O, bununla Rusiya ilə ipləri tamamilə qoparmaq niyyətindədir. Rusiyanın Dağlıq Qarabağ problemində Etmənistanı müdafiə etməməsi, Azərbaycanla əlaqələri genişləndirməsini əsas gətirərək, Qərbə doğru meyillənərək, nələrisə əldə edəcəyini düşünür. Ermənistan və Rusiya arasında əvvəllər ciddi hiss olunmasa da, artıq bütün parametrlər üzrə fikir ayrılıqları ciddi şəkildə nəzərə çarpır".

Politoloq bildirib ki, ötən il Sarkisyan konstitusiyada dəyişiklik etməklə, 2018-ci ilin may ayında keçiriləcək prezident seçkilərindən əvvəl prezidentlik səlahiyyətindən istifadə edərək, baş nazir olaraq siyasi fəaliyyətinə davam etməyi düşünür: "Onun Qərbə doğru meyillənməsi isə Rusiyaya qarşı Avropa dövlətlərinə arxalanmaq istəməsi ilə bağlıdır. Sarkisyan demokrat cildinə girərək, Avropa dövlətləri arasında nüfuz qazanmağa çalışır. Ancaq Sarkisyanın bu oyunlardan, siyasi manevrlərdən qalib çıxacağını söyləmək çətindir. Çünki Ermənistanın hakim dairələrində olan Rusiyaya meyilli siyasət yürüdən kifayət qədər kadrlar var. Son baş verən hadisələrdən də görmək olur ki, Rusiyanın adamı olan baş nazir Karen Karapetyan açıq şəkildə Sarkisyana meydan oxuyur. Bunun nəticəsidir ki, Karapetyan və onun ətrafında olan yerli ermənilər "Qarabağ klanı"na başçılıq edən Sarkisyanı tam mühasirəyə alıblar. Fikrimcə, hakimiyyətin daxilində bu cür çəkişmə Yerevanda çox ciddi qarşıdurmalarla müşayiət olunacaq. Bu qarşıdurmaların Sarkisyanın məğlubiyyəti ilə nəticələnəcəyini ehtimal etmək də olar".

Beləliklə, bütün bu faktlar, onu deməyə əsas verir ki, Serj Sarkisyanın bu gün yalan danışmaqda və ictimaiyyəti çaşdırmaqda davam etməsi gözlənilən haldır. Çünki insanın xasiyyəti sürətlə dəyişmir. Xüsusilə, siyasətə yalanla gələn adamların sonradan ədalətli olmaları olduqca çətindir. Lakin bütövlükdə, erməni xalqını bu adamın məhvə doğru apardığı şübhə doğurmur. Təki Sarkisyan vicdanının səsini (əgər onda varsa- R.H.) eşidib, düz yola gəlsin. Yoxsa bundan sonra qan töküləcəksə, günahkar Sarkisyan olacaq və xalq onu bağışlamayacaq.

***A.SƏMƏDOVA***



# Dövlətçilik tariximizdə Azərbaycan SSR

***Məlum olduğu kimi, Azərbaycan özünün 70 illik bir dövrünü sovet rejimində yaşamalı olmuşdur. 1920-1991-ci illər ərzində kommunist-totalitar rejimin təsiri altında hərbi-iqtisadi müstəqilliklərini dövlətçiliyin bir çox atributlarını özündə saxlaya bildi. Bu barədə Ulu Öndər Heydər Əliyev 1999-cu il mayın 27-də Azərbaycanın İstiqlal bayramı - Respublika Gününə həsr olunmuş təntənəli yığıncağındakı çıxışında özünün dahiyanə mülahizələrini bildirmişdir: “Bu dövrdə Azərbaycan xalqı kommunist rejimində, Ümumittifaq sosialist dövlətinin tərkibində olduğundan, şübhəsiz ki, müstəqilliyini itirmiş, ancaq dövlətçiliyini tam itirməmişdi.***

Azərbaycan Respublikasının dövlətçiliyinin bir çox atributları qalmış və yaşamışdı. Əsas cəhət budur ki, yetmiş il ərzində Azərbaycan xalqı böyük tarixi yol keçmiş, respublikanın iqtisadiyyatı yüksək sürətlə inkişaf etmiş, xalqımızın mədəni, təhsil səviyyəsi yüksəlmiş, Azərbaycanın elmi, mədəniyyəti, həyatının bütün sahələri inkişaf etmiş, respublikada böyük iqtisadi - sosial və mədəni-intellektual potensial yaranmışdır.

Azərbaycan xalqı həmin dövrdə mövcud şəraitə uyğunlaşsa da, eyni zamanda, onun qəlbində tam müstəqillik və milli azadlıq hissləri yaşamışdır. Keçmişdə olduğu kimi, bu dövrdə də həmin hisslər xalqımızı heç vaxt tərk etməmişdir... siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq, xalqımız həmişə milli azadlığı və istiqlala can atmışdır”.

Azərbaycan SSR-in siyasi müstəqilliyinin və beynəlxalq statusunu saxlamasını tarixçi alimlər də təsdiq edirlər. Tarixçi alim Tahir Qafarov özünün “Azərbaycan tarixi (1920-1991-ci illər)” əsərində yazır: “Azərbaycan (1920, 28 aprel) silah gücünə milli hökumət devrilib sovet respublikaları yaradıldıqdan sonra bu respublikalar tez bir zamanda hərbi və iqtisadi müstəqilliklərini və beynəlxalq subyekt statuslarını saxladılar. Bolşeviklər “zəif, cahil, anarxizmə meyilli rus xalqını Avropanın xilaskarı və dünyanın mənəvi” rəhbəri olmağa çağırırdı”.

(Maksim Qorki). Şərq xalqlarını, müstəmləkələri, bolşevizmi qəbul etməyən Avropaya qarşı qaldırmaq bunun mühüm vasitəsi hesab edilirdi. Moskva dünyanın bu hissəsini öz nüfuz dairəsinə cəlb etmək üçün orada inqilabi prosesləri canlandırmaq işində təbii, iqtisadi və mənəvi potensialı ilə seçilən və cəlbedici ölkəyə çevrilə biləcək Azərbaycanı “Şərqin qapısı” kimi qiymətləndirir, ona xüsusi rol ayırırdı. Şərq xalqlarının I qurultayının (1920, 1-7 sentyabr), Şərq gəncləri qurultayının (1920, 9-10 sentyabr) təmtəraqlı şəkildə Bakıda keçirilməsi heç də təsadüfi deyildi. Şərq xalqları arasında inqilabi təbliğat işi aparmaq və milli azadlıq hərəkatlarını idarə etmək məqsədilə xüsusi şuralar da təsis edilmişdi. Lakin Şərq xalqları sovet Azərbaycanının Moskvadan siyasi asılılığını, iqtisadi və mədəni tərəqqidə birtərəfliliyi, bunun müstəmləkə rejiminin möhkəmlənməsinə xidmət etdiyini görürdülər. Moskva istəyinə nail ola bilmədi. Nüfuz dairələrində möhkəmlənmək üçün bolşevik elitasının hakim olduğu ərazilərdə vahid dövlət, sovet imperiyası yaratmağa başladı.

Sovet imperiyası yaradılması yolunda növbəti addım 1917-ci ildən sonra meydana gəlmiş respublikaların vahid bir dövlətdə birləşdirilməsi oldu. 1922-ci ilin avqust-sentyabr aylarında kommunistlərin təzyiqi ilə Azərbaycanda RSFSR-lə birləşmək “arzusunu” ifadə edən yığıncaqlar keçirildi. Avqust ayında Moskvada sovet respublikaları arasındakı münasibətlərin təşkili məsələsi üzrə müşavirə oldu. Respublikaların, o cümlədən, Azərbaycanın nümayəndəliyi daxil olan xüsusi komissiya yaradıldı. Bu komissiya respublikaların muxtariyyət hüququ ilə RSFSR-ə daxil olması haqqında tezisləri qəbul etdi. Bu tezislərin müəllifi, demək olar ki, İ.V.Stalin idi. Bir sıra respublikalarda, xüsusən, Gürcüstanda ciddi narazılıqları nəzərə alan Lenin, İttifaq dövləti daxilində formal da olsa, respublikaların “suverenliyinin və bərabərliyinin” saxlanmasını vacib bildi.

ZSFSR sovetlərinin I qurultayı federativ respublikanın Sovet Sosialist Respublikaları İttifaqına (SSRİ-yə) daxil olmasına tərəfdar çıxdı.

1922-ci il dekabrın 30-da Moskvada SSRİ Sovetlərinin I qurultayında RSFSR, Ukrayna SSR, ZSFSR və Belarusiya SSR SSR İttifaqında “könüllü surətdə” birləşdilər. Nəriman Nərimanov SSRİ Mərkəzi İcariyyə Komitəsi sədrlərindən (dörd sədrdən) biri seçildi”.

SSRİ tərkibinə qatılmaqla Azərbaycan SSR özünün “əcaib suverenlik” mərhələsinə qədəm qoydu: formal olaraq onun qanunverici, icraedici və məhkəmə orqanları var idi;

- Azərbaycan SSR formal olaraq suveren hesab olunurdu;
- Hətta respublika “müstəqil” dövlət kimi SSRİ tərkibindən çıxmaq hüququna malik idi;

Lakin əslində:

- Ali qanunverici orqan SSRİ Ali Soveti;
- İcraedici orqan Sov.İKP MK Siyasi Bürosu;
- Məhkəmə orqanı SSRİ Ali Məhkəməsi idi.

Əslində, Azərbaycan SSR-in icraedici, qanunverici və məhkəmə orqanları yerli təşkilatlar kimi fəaliyyət göstərirdilər. Azərbaycan SSR-də təkpartiyalı bolşevik elitası, xüsusən, Baş Katib öz siyasi iradəsini istədiyi şəkildə həyata keçirirdi. Bu barədə tarixçi-alim Tahir Qafarov öz əsərində belə yazır:

“Sovet imperiyasında hakim millət yox, hakim ideologiya və onu dəstək edərək, bütün dünyada ağalığa can atan hakim partiya elitası vardı. Hər şey bütün insanların, xalqların, millətlərin və respulikaların mənafeləri onlara tabe edilmişdi. Nəyin bu maraqlara müvafiq olduğunu birinci şəxslər və onlara təsir etməyi bacaran siyasi elita müəyyən edirdilər.

Bu şəraitdə bolşevik liderlər sırasına soxulmuş kommunist-daşnaqlara öz millətçi iddialarını həyata keçirmək üçün münasib imkanlar yaranmışdı. Onların təhriki ilə siyasi rəhbərlikdə belə bir qeyri-rəsmi doktrina formalaşmışdı ki, guya “kommunizm işinin”, “dünya kommunist inqilabının”, proletariatın və zəhmətkeş siniflərin mənafeyi SSRİ ərazisindəki türk xalqlarının öz soy kökü birliyinə, bir-birinə marağını “pantürkizm” kimi damğalamağı, habelə, Türkiyə ilə Sovet türk xalqları arasında fiziki və mənəvi körpü olan Azərbaycanı parçalamağı, milli simadan məhrum etməyi, Türkiyə ilə sərhədi olan Naxçıvan ərazisini ondan Ermənistan ərazisi ilə süni şəkildə ayırmağı, Ermənistanı böyük dotasiyalarla, Azərbaycanın ərazisi, iqtisadi imkanları hesabına inkişaf etdirməyi tələb edir.

N.Narimanov bu anti-Azərbaycan siyasətinə qarşı RK(b)P MK-yə və Stalinə yazdığı “Uçqarlarda inqilabımızın tarixinə dair” məktubunda qəti etiraz etmişdi. O, cəsarətlə yazırdı: “Mən, azacıq da olsa, şübhə etmirəm ki, AKP MK, Serqo (Orconikidze - T.Q.) və Stalinin timsalında bizə - türklərə inanmır, Azərbaycanın taleyini erməni daşnaqlara tapşırır”.

Bu ifşaedici məktubdan sonra rəhbərliyin ona münasibəti daha da soyuqlaşdı. 1925-ci il martın 19-da Nəriman Nərimanov qəfildən vəfat etdi”.

İstər sovet dövründə, istərsə də müstəqillik dövründə Ulu Öndər Heydər Əliyev Azərbaycanı daim bəlalardan və təhlükələrdən xilas etmişdir. Məmməd Əlizadə yazır ki, Heydər Əliyev diqqətini ancaq özünə gərəkli olan məsələlərə deyil, ümumiyyətlə, hava-su kimi vacib olan məsələləri mənimsəməyə yönəltmiş, ölkədə və ətrafında baş verən təhlükələrə dövlət və milli maraqlar kontekstindən baxmış və ona düzgün münasibət bildirmişdir.

Heydər Əliyevin zəkasının gücü ilə təhlükəni sovuşdurması vətənin bütövlüyünə xidmət edən vətəndaşlıq borcu idi. Heydər Əliyevin siyasi əqidə bütövlüyü bu idi desək, yanılmarıq.

Ölkəmizin ən çətin dövründə, onun ziddiyyətli, mürəkkəb hadisələr burulğanına düşdüyü bir zaman, ölkəmizi parçalamağa cəhd edən qüvvələrin ciddi fəallaşdığı, ərazi bütövlüyünün pozulduğunun gerçəkliyə çevrildiyi və beləliklə, müstəqilliyimizin ciddi təhlükədə qaldığı və Azərbaycanın beynəlxalq aləmdə təkləndiyi bir vaxtda özünün vətəndaş məsuliyyətini dərk edən Heydər Əliyev xalqın səsinə səs verərək, onun tələb və iradəsinə tabe olaraq, Azərbaycana rəhbərlik etməyə razılıq verdi.

Heydər Əliyev bu razılığı təkcə xalqımızın xahişi və tələbi ilə yox, həm də vicdanının tələbi ilə verdi. Vətənə, ana torpağa bağlılıq, övladı olduğu xalqına dərin məhəbbəti və xalqın ona olan böyük inamı Heydər Əliyevi bu addımı atmağa, Azərbaycanın müstəqilliyini və azadlığını qorumaq üçün bu ulu və müqəddəs vəzifəni öz üzərinə götürməyə vadar etdi.

Heydər Əliyev siyasi fəlsəfəsinin az da olsa, tərkibini təşkil edən bu şəxsiyyət amilləri onun alicənab, hazırcavab və bütöv əqidəli siyasi xadim kimi yetişməsinin əsasını təşkil etmişdir.

***Vahid Ömərov,***
***AMEA-nın Qafqazşünaslıq İnstitutunun “Gürcüstanşünaslıq” şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği” istiqaməti çərçivəsində hazırlanıb*

## Diqqət: Aspirinin təhlükəli xüsusiyyəti tapıldı

Amerika alimləri aspirinin təhlükəli xüsusiyyətini aşkar ediblər. Onlar bildiriblər ki, aspirin yoğun bağırsaqda yeni bədxassəli törəmələrin inkişafının qarşısını almaqla bərabər, xərçəng hüceyrələrinin təkamül potensialını artırır. Nəticədə preparatın təsirinə məruz qalmayan xərçəng hüceyrələri ilə müqayisədə belə hüceyrələr çoxsaylı mutasiyalara uğrayır. Belə çıxır ki, dərman vasitələrinə davamlı olan xərçəng hüceyrələrinin payı aspirin üzündən artır. "Zdorovye Mail.Ru" saytı xəbər verir ki, alimlər laboratoriya eksperimentləri gedişində bu qənaətə gəliblər.

Tədqiqatların artan həcmi göstərir ki, beş il ərzində hər gün az miqdarda aspirin qəbul etmək gələcəkdə xərçəngin inkişaf riskini azaldır. Məsələn, yoğun bağırsaqda bədxassəli törəmələrin əmələ gəlməsi ehtimalı azalır. ABŞ-da yaşlı əhalinin təqribən 50 faizi ürək-damar xəstəliklərinin profilaktikası məqsədi ilə hər gün 80-325 milliqram aspirin qəbul edir. Böyük Britaniyada bu göstərici 40 faiz təşkil edir. Daha əvvəl amerikalı tədqiqatçılar bildirmişdilər ki, Alsheymer xəstəliyinin müalicəsində də aspirindən istifadə etmək olar.

## Qida zəhərlənməsi daha çox nədən baş verir?

Bu ilin 8 ay ərzində Klinik Tibbi Mərkəzin (KTM) Yoluxucu şöbəsinə qida zəhərlənməsi ilə bağlı 92 müraciət daxil olub. SİA-nın xəbərinə görə, şöbənin müdiri Gülnarə Babayeva bildirib ki, ötən müddət ərzində ümumilikdə 724 nəfər müxtəlif kəskin mədə-bağırsaq, həmçinin yoğun bağırsaq diaqnozu ilə müayinə-müalicə alıb. Onun sözlərinə görə, son 8 ayda 13 botulizm halı qeydə alınıb.

Yay mövsümündə qida zəhərlənmələrinin daha çox baş verdiyini deyən G. Babayeva bildirib ki, qida zəhərlənməsi halları əsas səbəbi hazır qidaların düzgün saxlanılmaması olub: "Bunların arasında müxtəlif xamalı, mayonezli salatlardan, tomatla hazırlanmış, soyuducuda düzgün saxlanmamış yeməklərdən, qarpız, yemiş və digər meyvələrdən olan zəhərlənmələr üstünlük təşkil edir. Bu müddət ərzində qida zəhərlənmələrindən ölüm halı baş verməyib. Qarşıdan payız-qış mövsümi gəlir, bu müddətdə insanlar daha çox turşulara, konservləşdirilmiş məhsullara üstünlük verirlər. Vətəndaşlara məsləhət görərdik ki, ev şəraitində hazırlanmış konservləşdirilmiş məhsullardan istifadə edilməsin".

## Təbrik edirik!



Kənanı 1 yaşının tamam olması münasibətilə atası Elnar, anası Aygün, babaları, nənələri, əmisi, dayıları və xalaları ürəkdən təbrik edir, həyatda uzun ömür, can sağlığı, həm də uğurlarla əhatə olunmuş mənalı həyat arzu edirlər.

*Kənan şirin-şəkər, noğul baladır,*
*1 yaşa çatıbdı xoş dəmlər üstə.*
*Aygünçün, Elnarçün oğul baladır,*
*Möhkəm dayanıbdı qədəmlər üstə.*

*Arzusu bar verib, açsın min çiçək,*
*Mənalı yaşayıb, daim şad olsun.*
*Ona nəsib olsun xoş bir gələcək,*
*Vətənə gərəkli bir övlad olsun.*

## ELAN

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası siyasi-idarəetmə fakültəsinin III kurs tələbəsi İbrahimova Səbinə Namiq qızının adına verilmiş tələbi bileti itdiyi üçün etibarsız sayılır.**

**Naxçıvan Dövlət Yol Polisi tərəfindən Novruzov Orxan Abil oğluna verilmiş sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin ingilis dili fakültəsinin IV kurs tələbəsi Teymurova Gülruhə Natiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

## Tərlan Əhmədov "Neftçi"nin baş məşqçisi təyin olundu



"Neftçi" PFK-ya yeni baş məşqçi təyin olunub. Qol.az-ın xəbərinə görə, bu haqda klubun saytı məlumat yayıb. Komandanı Tərlan Əhmədov çalışdıracaq. Onunla mövsümün sonunadək müqavilə bağlanıb. Tərlan Əhmədov bu gün saat 17:00-da komandanı məşqə çıxaracaq. Topaz Premyer Liqasının V turunda sentyabrın 16-da baş tutacaq "Neftçi" - "Zirə" oyunundan bir gün əvvəl yeni baş məşqçinin rəsmi təqdimatı ilə bağlı mətbuat konfransı keçiriləcək.

Qeyd edək ki, Tərlan Əhmədov 1989-1991, 1998-2002-ci illər ərzində "Neftçi"də çıxış edib, 117 oyunda 6 qol vurub. 1999-cu ildə ölkə kubokunun qalibi olub və Azərbaycanın ən yaxşı futbolçusu seçilib. 1992-2005-ci illər ərzində milli komandada 75 oyun keçirib. 45 yaşlı mütəxəssis 2011-2013-cü illərdə "Neftçi"də məşqçi vəzifəsində çalışıb. Həmin müddətdə komandamız Azərbaycan çempionatının (2012, 2013) və kubokunun (2013) qalibi olub, futbol tariximizdə ilk dəfə UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanıb (2012).




## El Klassikonun vaxtı dəyişib

İspaniya La Liqasında dekabrın 20-də keçirilməsi nəzərdə tutulan "Real Madrid"-"Barselona" oyununun vaxtı dəyişdirilib. AZƏRTAC "Eurosport" saytına istinadən xəbər verir ki, Çempionlar Liqasının 2016/2017-ci il mövsümünün qalibi olduğu üçün "kral klubu" dekabrın 6-16-da Birləşmiş Ərəb Əmirliklərində klublarası dünya çempionatında iştirak edəcək. Bu səbəbdən El Klassikonun vaxtı dekabrın 23-nə ertələnib.

## Frank de Bur ingilis klubundan qovuldu

İngiltərənin "Kristal Palas" klubu baş məşqçisi Frank de Buru istefaya göndərib. İngilis klubun saytında yer alan xəbərə görə, buna səbəb komandanın uğursuz çıxışları olub. London təmsilçisi mövsümün ilk 4 oyununun hamısında məğlub olub. Turnir cədvəlinin 19-cu pilləsində qərarlaşan komanda bu mövsüm qol vura bilməyib. Qeyd edək ki, mövsümün əvvəlindən komandanı çalışdıran hollandiyalı mütəxəssis son olaraq "Ayaks"ın baş məşqçisi olub.

## Rafael Nadal ABŞ açıq turnirində qalib olub



Dünyanın bir nömrəli tennisçisi, ispaniyalı Rafael Nadal Nyu-Yorkda keçirilən ABŞ açıq turnirində kişilərin fərdi yarışının qalibi olub. AZƏRTAC xəbər verir ki, Nadal final qarşılaşmasında Cənubi Afrika Respublikasından olan tennisçi, dünya reytinqində 28-ci yerdə qərarlaşan Kevin Andersonu məğlub edib. Setlərdə 6:3, 6:3 və 6:4 hesabı ilə qalib gələn ispaniyalı tennisçi karyerasında üçüncü dəfə ABŞ açıq turnirinin kubokunu başı üzərinə qaldırıb. Nadal bu qələbə sayəsində turnirin 3,7 milyon dollarlıq əsas mükafatının da sahibi olub. Qeyd edək ki, bu, Nadalın cari ildə ikinci, karyerası ərzində isə 16-cı böyük dəbilqə çempionluğudur.

## Qol güləşçilərimiz dünya çempionatında 8 medal qazanıblar



Macarıstanın paytaxtı Budapeştdə qol güləşi üzrə XXXIX dünya çempionatı başa çatıb. Azərbaycan Qol Güləşi Federasiyasından (AQGF) AZƏRTAC-a bildirilib ki, Azərbaycanın milli komandası yarışda 8 idmançı və bir məşqçi olmaqla, 9 nəfərlik heyətlə təmsil olunub. İdmançılarımız çempionatda yüksək nəticələr əldə ediblər. AQGF-nin idmançıları yığma komandanın aktivinə 6 qızıl və 2 gümüş olmaqla, ümumilikdə 8 medal qazandırıblar. Yarışda Azərbaycanı təmsil edən idmançılarımızdan 21 yaş kateqoriyasında Ramazan Rüstəmov (65kq) iki qızıl (sağ və sol qolda) və Nemət Vəkilov (60 kq) qızıl (sol qol) medal qazanıblar. İsgəndər Mustafayev (55 kq) 18 yaş kateqoriyasında qızıl (sağ qol) və gümüş medala (sol qol) sahib olub. Rahib Balakişiyev (60kq) paralimpiyaçıların mübarizəsində qızıl (sağ qol) və gümüş (sol qol) medal qazanıb. Minabəddin Qurbanov (100 kq-dan yuxarı) "Senior Grand Master" kateqoriyasında qızıl (sol qol) medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**

***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**